**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**QANQA NƏRİMAN qızı NƏSİROVA**

# MÜASİR ŞƏRAİTDƏ SİNİFDƏNXARİC İŞ MƏKTƏBDƏ PEDAQOJİ PROSESİN ƏSAS FORMALARINDAN BİRİ KİMİ (X-XI SİNİFLƏRİN MATERİALLARI ƏSASINDA)

5804.01– Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin (Azərbaycann Müəllimlər İnstitutunun) Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ləzifə Nağı qızı Qasımova**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi,*

**Yadigar Babakişi oğlu Səmədov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrası**

Müdafiə "26" sentyabr 2017-ci il tarixdə saat $16^{00}$ - da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya işi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat "___"_____________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **Rövşən Zülfüqar oğlu Hümbətəliyev**
*riyaziyyat üzrə elmlər doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı-**Ümumtəhsil məktəblərində pedaqoji işçilər tərəfindən həyata keçirilən sinifdənxaric fəaliyyət təlim-tərbiyə işinin əsas formalarından biri olmaqla yanaşı, həmçinin şagirdlərin asudə vaxtlarının məqsədəuyğun və səmərəli təşkili prosesidir. Müasir dövrdə ümumtəhsil məktəblərinin ən aktual məsələlərindən biri yuxarı sinif şagirdlərinin asudə vaxtının düzgün təşkil edilməsi prosesidir. Cəmiyyətdə baş verən uşaq cinayətkarlığı, narkomaniya, alkoqolizm və digər neqativ hallardan biri də məhz ümumtəhsil məktəblərində gənclərin asudə vaxtlarının düzgün qurulmaması səbəbindən irəli gəlir. İlk gənclik dövrünün çətinliklərini yaşayan X-XI sinif şagirdlərinin asudə vaxtlarının məktəb müəllimləri və valideynlər tərəfindən nizamlanması nəticəsində "çətin tərbiyə olunan» məktəblilərin sayı getdikcə azalır. Asudə vaxtlarında şagirdlərin fərdi qabiliyyətlərini üzə çıxarmaq, onların bacarıq və imkanları daxilində meyl etdikləri sahədə məşğul olmaqlarına şərait yaratmaq məqsədilə, məktəbdə rəngarəng sinifdənxaric iş formalarından istifadə olunur.

İnformasiya texnologiyalarının vüsət aldığı müasir dövürdə dərs fənlərini həvəssiz dinləyən yuxarı sinif şagirdlərini təəssüf ki, sinifdənxaric məşğələlərə cəlb etmək çox çətindir. Buna nail olmaq üçün müəllimlər əsaslı dəlillər gətirməli, maraqlı məlumatlar verməklə onlarda sinifdənxaric təlimə həvəs yaratmalıdırlar. Çünki sinifdənxaric işlər təlim-tərbiyə prosesinin məntiqi davamı olmaqla yanaşı, həm də şagirdlərin şəxsiyyətini formalaşdırır və inkişaf etdirir. Tərbiyə prosesinin idarə edilməsi zamanı müəllimlər təkcə şagirdlərin təbiətən onlara xas olan xüsusiyyətlərinin inkişafı və təkmilləşdirilməsi qayğısına qalmır, həmçinin onların şüur və davranışlarında rast gələ biləcəkləri arzuolunmaz neqativ halları nizamlayır, fiziki və mənəvi cəhətdən güclü olduqlarını təsdiq etmək üçün şagirdlərə həm də daim öz üzərində müstəqil çalışmağın, özünü inkişaf etdirməyin yollarını göstərirlər.

Tədqiqat işində qeyd edilir ki, sinifdənxaric iş yuxarı sinif şagirdlərinin təlim, tərbiyə , təhsilində çox mühüm rol oynayır və təkcə tərbiyələndirici deyil, həm də inkişafetdirici və təhsilləndirici vəzifələr daşıyır.

Müəyyən bir fənnə marağı inkişaf etdirmək üçün şagirdlər aktiv fəaliyyətə cəlb edilməlidir. Dərnəklər, elmi konfrans və gecələrdə praktik nümunələrin köməyi vasitəsi ilə keçirilən sinifdənxaric məşgələlər zamanı məktəbli bunu əyani olaraq gördüyü üçün dərindən anlayır və yaddaşına daha tez həkk edir. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan, təfəkkü-

rün və şəxsiyyətin inkişafına yönəldilmiş dərsin məntiqi davamı olan sinifdənxaric fənn məşğələlərinin həyata keçirilməsi vasitəsi ilə valideynlər həmçinin repititor xidmətindən qismən azad olur, yuxarı sinif şagirdləri isə dərs zamanı aldıqları nəzəri biliklərini daha da dərinləşdirmək imkanı əldə edirlər.

Müasir təhsil şagirdlərin gələcək fəaliyyətə hazırlığını hər bir şəxsin fərdi ehtiyacında görür. Şübhə yoxdur ki, ümumi təhsil pilləsində oxuyan şagirdlərin heç də hamısı təhsilalma bacarıqlarına görə eyni səviyyədə deyildir. Ona görə də ümumi təhsilin son səviyyəsində ümumi orta təhsili uğurlu nəticələrlə başa vuran, xüsusi qabiliyyət nümayiş etdirən, gələcəkdə təhsillərini ali məktəblərdə davam etdirməyə qadir olan istedadlı şagirdlər təhsil almalıdır. Lakin valideynlər nəyin bahasına olursa olsun öz övladının ali məktəbə qəbul olunmasını arzu edir, seçdiyi ixtisas qrupunda onlarının yaxşı nəticələr göstərməsi üçün fərdi hazırlıq məqsədi ilə repetitor xidmətindən istifadə edirlərlər.

2011-2012-ci dərs ilindən başlayaraq bəzi lisey və məktəblərdə müxtəlif təmayüllər üzrə (texniki, riyaziyyat-iqtisadiyyat, humanitar və təbiət) pilot layihə tətbiq olunmağa başlandı və tam orta təhsil səviyyəsində fənlərin sayının azaldılması, təmayül fənlərinin tədrisinə ayrılan həftəlik dərs saatlarının miqdarının nəzərəçarpacaq dərəcədə artırılması və beləliklə də təhsilin şagirdlərin meyil və maraqları əsasında təşkili həm şagirdlər, həm də valideynlər tərəfindən müsbət qarşılandı. Təmayülləşmənin tətbiqi ilə repetitor xidmətindən istifadə halları tam aradan qaldırılmasa da, qismən azalmışdır. Lakin bu proses yalnız bəzi məktəb və liseylərə şamil edildiyi üçün məktəblərdə sinifdənxaric fənn məşğələləri və dərnəklərin həyata keçirilməsi vasitəsi ilə yaranmış vəziyyəti yüngülləşdirmək mümükün idi. Məktəbdə təşkil olunmuş sinfdənxaric fənn məşğələləri həm də ali məktəblərə hazırlaşan yuxarı sinif şagirdlərinə kömək məqsədi də daşıyır.

Bir çox pedaqoq, psixoloq və metodistlər bilik tətbiq etmək vasitəsi ilə qabiliyyətlərin formalaşdırılması məsələsinə elmi tədqiqat işləri həsr etmiş, lakin müəlliflərin hamısı bu qabiliyyətlərin formalaşdırılması yolunu yalnız dərs prosesində (məsələlərin həlli prosesində, müstəqil və ya laboratoriya işlərinin yerinə-yetirilməsi zamanı) görür və sinifdənxaric işlərin imkanlarına heç bir diqqət yetirrmirdilər.

Dissertasiya işində göstərilir ki, Azərbaycanın və digər xalqların tədqiqatçı alimləri sinifdənxaric işlərə aid xeyli tədqiqat əsəri, metodiki vəsait, jurnal məqaləsi yazsalar da, gənclərdə müasir düşüncə tərzinin formalaşdırılması, onları tədqiqat yönümlü fəaliyyətə cəlb edərək, dərs prosesin-

də aldıqları nəzəri biliklərinin praktikaya tətbiq etməsi vasitəsilə keçirilən sinifdənxaric işlərə aid son on beş ildə sanballı elmi əsər yazılmamışdır. Azərbaycan tədqiqatçılarından Ə.Bədəlova, A.Mahmudov, B.Həsənov R.Pirimova, M.Əbdülov, P.Həsənova, Z.Əliyeva, Ş.Əsgərov, S.İsayeva, N.Səfiyev, T.Sadıqov, M.İsmixanov, K.Həsənov, G. Kərimovanın və başqalarının sinifdənxaric işlərə həsr etdikləri elmi tədqiqat işləri əsasən ayrı-ayrı fənlərə aid edilmiş, ya da ibtidai sinif şagirdlərinin fəaliyyətini özündə əks etdirmişdir.

H.M.Mənsimovun "Sinif rəhbərinin tərbiyə üzrə işinin şagird şəxsiyyətinin formalaşmasına təsiri", T.M.Muradovanın "Pedaqoji təmayüllü orta ixtisas məktəbi tələbələrinin kiçikyaşlı məktəblilərlə dərsdənkənar işə hazırlanması",M.Ə.Abbasovun "Təlim və tərbiyənin vəhdəti şəraitində kiçikyaşlı məktəbli şəxsiyyətinin formalaşdırılması problemi", A.S.Axundovanın "V-XI siniflərdə şagirdlərin bililklərinin möhkəmləndirilməsində təlim xarakterli sinifdənxaric işlərin imkanları» İ.M.Əliyevin "Ümumtəhsil məktəblərində sinifdənxaric tədbirlər vasitəsilə bədən tərbiyəsi və idman işlərinin təşkilinin nəzəri və praktik əsasları (V-IX sinif materialları əsasında)» S.A.Abdullayevanın "Sinifdənxaric tədbirlər yuxarı sinif şagirdlərinin milli mənlik şüurunun formalaşdırılmasının mühüm vasitəsi kimi və digər tədqiqatçı alimlərin dissertasiya işləri isə, son 10 ildə təhsil sahəsində qəbul edilmiş normativ-hüquqi sənədlər, inkişafedici təhsilin parametləri, qabaqcıl texnologiyalar və elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların tətbiqi baxımından müasir məktəbin bu günkü tələblərinə cavab vermir.

Biz tədqiq etdiyimiz problemin həllində sinifdənxaric işi müasir şəraitdə pedaqoji prosesin əsas formalarından biri kimi götürmüş və onun vasitəsi ilə yuxarı sinif şagirdlərinin (X, Xİ siniflər) dərs zamanı aldıqları nəzəri biliklərini praktikaya tətbiq etməklə daha da möhkəmləndirilməsi və dünyagörüşlərinin artırılması məsələsini nəzərdə tutmuşuq.

Aparılmış tədqiqat işinin təhlili sübut edir ki, bu problem müasir məktəb üçün aktualdır.Təqdim etdiyimiz dissertasiya işinin aktuallığını aşağıda qeyd olunan məsələlər şərtləndirir:

- tədqiqat işinin aparıldığı ümumtəhsil məktəblərində bəzi pedaqoji işçilərin şagirdlərin dərs zamanı aldıqları bilik və bacarıqlarını praktikaya tətbiq etməklə daha da təkmilləşdirilməsinə vasitə olan sinifdənxaric işlərin imkanlarını düzgün qiymətləndirməmələri;
- şagirdlərin dərs zamanı aldıqları bilik və bacarıqlarının praktikaya tətbiq edilməsi ilə daha da təkmilləşdirilməsinə vasitə olan sinifdənxaric tədbirlərin həyata keçirilməsi üçün metodiki vəsaitin kifayət qədər

olmaması və ya sistemsiz xarakter daşıması.

Problemin aktuallığını nəzərə alaraq tədqiqat işinin mövzusu " Müasir şəraitdə sinifdənxaric iş məktəbdə pedaqoji prosesin əsas formalarından biri kimi" (X-XI siniflərin materialları əsasında) müəyyənləşdirilmişdir

**Tədqiqatın obyekti-** ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri ilə həyata keçirilən sinifdənxaric iş sistemidir.

**Tədqiqatın predmeti-** ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin dərs zamanı aldıqları bilik və bacarıqlarının sinifdənxaric işlərin həyata keçirilməsi vasitəsi ilə inkişaf etdirilməsi prosesidir (X-XI siniflərin materialları əsasında).

**Tədqiqatın məqsəd-** şagirdlərin idrakı maraqlarına, imkanlarına əsaslanan, həmçinin onların təlim səlahiyyətlərini yüksəldən və inkişaf etdirən sinifdənxaric işlərin pedaqoji şərtlərini müəyyənləşdirmək, onları nəzəri və eksperimental cəhətdən əsaslandırmaqdır (X-XI siniflərin materialları əsasında).

**Tədqiqatın fərziyyəsi-** ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlər ilə həyata keçirilən sinifdənxaric işlərin onların inkişafına təsiri aşağıda qeyd olunan pedaqoji şərtlər təmin edildikdə səmərəli olar:

- X-XI siniflərin materialları əsasında yuxarı sinif şagirdlərinin inkişafının formalaşdırılmasına yönəldilən sinifdənxaric işlərin təlim-metodikası hazırlanıb həyata keçirildikdə;
- sinifdənxaric məşğələlərin həyata keçirilməsi zamanı fəal iş formaları (təqdimat, sərbəst işlərin nümayişi, məruzə ) və metodları (layihə metodu, beyin həmləsi, tapşırqalrın həll edilməsinin daha səmərəli formaları) tətbiq edildikdə;
- şagirdlər valideynlərlə birgə praktik məşğələlərə cəlb edildikdə.

Yuxarıda qeyd edilmiş fərziyyəyə istinad edərək və qarşıya qoyulmuş məqsəddən irəli gələn aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

1. Şagirdlərin bilik və bacarıqlarının artırılmasına vasitə olan sinifdənxaric işlərin məzmunu və mahiyyətini aşkar etmək .
2. Ümumtəhsil məktəblərində şagirdlərin inkişafına yönəldilən sinifdənxaric işlərin potensial imkanlarnı müəyyən etmək və elmi cəhətdən əsaslandırmaq.
3. X-XI siniflərin materialı əsasında həyata keçirilən sinifdənxaric işlərin şagirdlərin inkişaf səviyyəsinə təsirini xarakterizə edən meyarlar işləyib hazırlamaq.
4. Sinifdənxaric işlərin həyata keçirilməsi zamanı şagirdlərin yaradıcı inkişafına effektiv təsir göstrən pedaqoji şərtləri elmi cəhətdən

əsaslandırmaq və eksperimentin aparılması vasitəsi ilə yoxlamaq.

**Tədqiqatın metodoloji əsasını** – pedaqoji gerçəklik, pedaqoji fakt, hadisə və proseslərin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu təşkil edir.

Yuxarıda qeyd olunan vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı tədqiqat **üsullarından** istifadə edilmişdir:

1. Nəzəri təhlil. Probemin hansı səviyyədə tədqiq edildiyini aşkara çıxarmaq məqsədilə mövcud elmi pedaqoji və metodiki ədəbiyat öyrənilərək təhlil edilmiş, ümumiləşdirmələr aparılmış və buna müvafiq olaraq müəyyən nəticələr çıxarılmışdır.

2. Anket sorğusu. Tədqiqatın gedişinə aydınlıq gətirmək məqsədilə müəllimlər, sinif rəhbərləri, sinifdənxaric tərbiyə işlərinin təşkilatçıları, valideynlər və X-XI sinif şagirdləri ilə anket sorğusu keçirilmişdir.

3. Pedaqoji müşahidə. Problemlə bağlı ümumtəhsil məktəblərinin yuxarı siniflərində dərslər dinlənilmiş, yuxarı sinif şagirdləri ilə aparılan sinifdənxaric iş, təşkil olunan ayrı-ayrı tədbirlər müşahidə edilmişdir.

4. Pedaqoji müsahibə. Problemi araşdırmaq, onun haqqında geniş məlumat almaq, tədqiqatın gedişinə aydınlıq gətirmək və bu sahədə səmərəli fəaliyyət göstərmək üçün pedaqoji işçilər, şagird və valideynlərlə müsahibələr aparılmışdır.

5.Qabaqcıl pedaqoji təcrübə ümimiləşdirilmişdir.

6. Pedaqoji eksperiment. Anket sorğusu, müşahidə, müsahibə və digər tədqiqat üsullarından çıxarılan nəticələrin doğru olduğunu yoxlamaq məqsədilə pedaqoji eksperiment təşkil edilmişdir. Eksperiment Bakı şəhərinın 60 saylı tam orta məktəbində, Zərifə Əliyeva adına liseydə, Zaqatala şəhər 1, 2 və 3 saylı, Balakən şəhər 1, 2 saylı tam orta məktəblərdə aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi**: 1.Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin inkişafına yönəldilən sinifdənxaric işlərin potensial imkanları müəyyən edilmiş və əsaslandırılmışdır;

2. Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin bilik və bacarıqlarının möhkəmləndirilməsinə yönəldilən sinifdənxaric işlərin meyarları hazırlanmış (şəxsi həvəsləndirmə - idrak, yaradıcı fəaliyyət vasitəsi ilə motivasiya yaratmaqla) və inkişaf səviyyələri xarakterizə edilmişdir (yüksək, orta, aşağı).

3. Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlər ilə həyata keçirilən sinifdənxaric işlərin onların inkişafına təsir edən pedaqoji şərtləri əsaslandırılmışdır: ( X-XI siniflərin materialları əsasında yuxarı sinif şagirdlərinin inkişafının formalaşdırılmasına yönəldilən sinifdənxaric

işlərin təlim-metodikası hazırlanıb həyata keçirilmiş, sinifdənxaric içlərin çeşidləri genişləndirilmiş (fənn məşğələləri, dərnəklər, elmi konfranslar ), fənn məşğələlərinin keçirilməsi zamanı fəal iş formaları (təqdimat, sərbəst işlərin nümayişi, məruzə, hadisələrin senariləşdirilməsi ) və metodlarından (layihə metodu, beyin həmləsi, evristik metod-tapşırqalrın həll edilməsinin daha səmərəli yolları) istifadə edilmiş, şagirdlər mütəxəssis valideynlərlə birgə praktik məşğələlərə cəlb edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Şagirdlərin bikilərinin artıırılması, alınmış bilklərin praktikaya tətbiq edilməsinə vasitə olan sinifdənxaric işlərin nəzəri müddəaları təklif edilmişdir:

1. Sinifdənxaric işin həyata keçirilməsində mövcud olan yanaşmalar ümumiləşdirilmiş və sistemli şəkildə işlənilmiş, ümumitəhsil sistemində onun yeri və rolu müəyyən edilmişdir;

2. Pedaqoji prinsip və qanunauyğunluqlara əsaslanan təlim xüsusiyyətlərini özündə əks etdirən sinifdənxaric işin nəzəri əsası formalaşdırılmışdır;

3. Fənlərarası əlaqlərin inkişaf etdirilməsi və şagirdlərin bilklərinin praktikaya tətbiq edilməsi nəticəsində fəaliyyətlərinin aktivləşdirilməsi ilə nəticələnən fənn məşğələlərinin məzmunun qurulmasına ilk dəfə olaraq yeni yanaşmalar təklif edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işində öz ifadəsini tapmış sinifdənxaric iş sistemindən məktəb müəllimləri, bakalavriat, magistrant və doktorantlar istifadə edə bilərlər.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Dərsin məntiqi davamı olan sinifdənxaric işlərin mütəmadi olaraq keçirilməsi nəticəsində şagirdlərin nəzəri bikiləri təkmilləşir, müstəqil işğörmə vərdişləri daha da inkişaf edir, qabiliyyətləri artır.

2. Şagirdlərin nəzəri biliklərini praktik işlərə yönəltməyə vasitə olan sinifdənxaric işlər zamanı, məktəblilər təlim materialını daha dərindən mənimsəyirlər.

3. Sinifdənxaric işlərin dərs fənləri ilə əlaqəsi zamanı şagirdlərin dünyagörüşləri inkişaf edir.

**İşin aprobasiyası**. Dissertasiya Azərbaycan Müəllimlər İnstitutunda hazırlanmışdır. Müəllifin problemlə bağlı 11 elmi məqaləsi, (onlardan ikisi xaricdə ), 7 (biri xaricdə) tezisi nəşr edilmişdir. O, 2012-2015-ci illərdə keçirilmiş respublika və beynəlxalq konfranslarda öz elmi işi ilə əlaqədar məruzə və tezislərlə çıxış etmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, on yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsası ,elmi yenili, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır, istifadə olunan tədqiqat metodları, müdafiəyə çıxarılan müddəalar göstərilir.

Dissertasiyanın **I fəsli " Ümumtəhsil məktəblərinin X-XI siniflərində sinifdənxaric işin təşkilinin nəzəri əsasları "** adlanır və dörd yarımfəsildən ibarətdir**.** Bu fəslin birinci yarımfəsli ***" Sinifdənxaric işin mahiyyəti və onun xüsusiyyətləri "*** adlanır.

"Sinifdənxaric işin" mahiyyəti açıqlanarkən pedaqoji ədəbiyyatda " sinifdənxaric iş" məfhumu ilə yaxınmənalı "sinifdənkənar iş", "dərsdənkənar tədbir", "sinifdənkənar tədbir", "məktəbdənkənar tədbir" məfhumları da işlənilir. Onların arasında oxşar və fərqli cəhətlər vardır. Bəzi hallarda sinifdənxaric iş ifadəsi" " məktəbdənkənar iş" ifadəsilə müqayisədə "dərsdənkənar iş" anlayışına uyğun gəlir. "Sinifdənxaric" və "dərsdənkənar iş " anlayışları müəyyən mənada oxşar səslənsə də, onların arasında tam eynilik yoxdur. Dissertasiya işində Azərbaycan və rus pedaqoqlarının sinifdənxaric iş məhfumuna münasibətləri açıqlanmışdır.

Biz tədqiq etdiyimiz problemin həllində sinifdənxaric işi pedaqoji prosesin əsas formalarından biri kimi götürmüş və onun vasitəsi ilə yuxarı sinif şagirdlərinin (X, XI siniflər) dərs zamanı aldıqları nəzəri biliklərini praktikaya tətbiq etməklə daha da möhkəmləndirilməsi və dünyagörüşlərinin artırılması məsələsini nəzərdə tutmuşuq.

Tədqiqat işində sinifdənxaric iş anlayışının mahiyyətinə aydınlıq gətiriləraək qeyd edilir ki, sinifdənxaric iş məktəbdə təlim-tərbiyə prosesinin əsas hissəsi olmaqla, şagirdlərin asudə vaxtlarının səmərəli təşkil edilməsi formalarından biridir. Məktəbdə əsasən təhsilin inkişafı istiqaməti üzrə keçirilən fənn məşğələlərinə, şagird elmi cəmiyyətlərinə, eləcə də məktəblilərin bədii və texniki yaradıcılıqlarının inkişafına yönəldilən dərnəklərə, idmana üstünlük verilir.

Sinifdənxaric iş məktəblilərin təlim imkanlarını fəallaşdırır. Şagirdlərin özünə inamsızlığı, , iradəsizlik, tam formalaşmamış bacarıqlar, maraqlı təşkil olunmuş sinifdənxaric işlər zamanı aradan qaldırılır və bu proses onlara böyük sevinc və uğur bəxş edir.

Sinifdənxaric məşgələlər məktəblilərin dərs zamanı aldıqları nəzəri biliklərini dərinləşdirir, onların fənnə marağını artırır və şagirdləri müstəqil işləməyə alışdırır. Fənn məşğələləri, dərnək, elmi konfrans, disput,

müzakirə, qiraət gecələri, istehsalata ekskursiyalarda təyinatı üzrə keçirilən praktik nümunələrin köməyi vasitəsi ilə məktəbli bunu əyani olaraq gördüyü üçün dərindən anlayır və yaddaşına daha tez həkk edir.

Sinifdənxaric məşğələlər müəllimə öz şagirdlərinin fərdi xüsusiyyətlərini daha yaxından tanımaq imkan verir, onların arasında olan xüsusi istedadlı şagirdləri müəyyən edir və onları öz maraqlarına uyğun olaraq istiqamətləndirir.

Sinifdənxaric işlərin müxtəlif formaları vasitəsilə keçirilən tədbirlər quru, cansıxıcı söhbətlərdən, nəsihətlərdən uzaq olmalı, konkret işə, canlı adamların əməli fəaliyyətinə, faktlara əsaslanmalı, məktəbliləri şəxsi nümunə üçün ideal tapmağa istiqamətləndirməlidir .

Sinifdənxaric işlərin mütəşəkkiliyinə nail olmaq üçün onun keçirilməsi zamanı məsuliyyət və intizamın olması başlıca şərtdir. Sinifdənxaric işin səmərəli qurulması üçün pedaqoji işçilərin bu işin mahiyyətini, məqsəd və vəzifələrini, istiqamətlərini, təşkili formalarını yaxşı bilməyi, təşkilatçılıq bacarıq və qabiliyyətlərinə malik olmağı tələb edir. Yuxarı sinif şagirdləri ilə sinifdənxaric işləri həyata keçirən pedaqoji işçilər pedaqoji prosesin prinsiplərinə, metod və priyomlarına, məktəblilərin yaş, cinsi və fərdi xüsusiyyətlərinə, temperament tiplərinə yaxından bələd olmalı, onlarda diqqət, hafizə, qavrayış, xarakter və s. inkişaf etdirilməsinə dair nəzəri biliklərini daima təkmilləşdirməlidirlər.

Yuxarıda qeyd etdiklərimizdən belə qənaətə gələ bilərik ki, sinifdənxaric iş, məktəbdə peşəkar fənn məllimlərinin rəhbərliyi ilə, məktəblilərin seçimi əsasında, könüllü surətdə, ardıcıl olaraq həyata keçirildikdə daha nəticəli olur. Şagirdlərin asudə vaxtlarının səmərəli təşkili, əməli bacarıq və vərdişlərə yiyələnmələri, onların mənəvi və intellektual inkişafı, potensial yaradıcılıq qabiliyyətlərinin aşkara cıxarılması, elmi-tədqiqatçılıq istedadlarının formalaşdırılması baxımından da bu məşğələlərin həyata keçirilməsi cox zəruridir.

Birinci fəslin"***Dərs və sinifdənxaric işin qarşılıqlı əlaqəsi şagirdlərin müstəqil fəaliyyətlərinin formalaşdırılması vasitəsi kimi***" adlanan ikinci yarımfəslində göstərilir ki, sinifdənxaric məşğələlərin dərslə birgə ahəngdarlığı nəticəsində şagirdlərin təlim tərbiyə və inkişaf problemlərinin həlli asanlaşır. Dərslə müqayisədə əsaslı fərq bundadır ki, sinifdənxaric işin mövzusunu müəllim şagirdlərlə birgə seçir. Seçim edərkən təhsil müəssisəsinin imkanları nəzərə alınmaqla, şagirdlərin arzu və meyilləri əsas götürülür.

Məktəblilərin sinifdənxaric fəaliyyətləri müxtəlifdir. Onların bir hissəsi bilavasitə dərslə bağlı olaraq ev tapşırıqlarının yerinə yetirilməsinə,

dərsdə çıxış etmək üçün məruzə və hesabatların hazırlanmasına, inşa yazılmasına aiddirsə, digər hissəsi şagirdlərin asudə vaxtlarında müstəqil fəaliyyət göstərmələri üçün könüllü olaraq yazıldıqları dərnəklər, fakultətiv məşğələlər, idmanın, incəsənətin müxtəlif növləri, peşələrin öyrənilməsi və digər maraq sahələridir.

Nəzəri biliklərlə tam əhatə olunmuş müasir dövrün şagirdi bunu praktikaya tətbiq etmək üçün seçdiyi fənn üzrə sinifdənxaric məşğələyə yazılır. Fənlər üzrə məktəbdə məqsədyönlü şəkildə təşkil olunmuş sinifdənxaric məşğələlərdə iştirak etməkə o, həm dərsdə aldığı biliyini dərinləşdirir, onun tətbiq sahələrini öyrənir, təcrübələrin qoyuluşunda iştirak edir, eyn izamanda, onu maraqlandıran sahə olduğu üçün gördüyü işdən zövq alaraq asudə vaxtını mənalı keçirir. Kollektivlə birgə keçirilən sinifdənxaric işlərdə daha maraqlı məqamlar yaşanır. Vaxt məhdudiyyəti olmadığı üçün şagirdlər bir-biri ilə daha sıx ünsüyyətdə olur, bir-birini daha yaxşı tanıyir, ümumi işi birgə ğörür, bir-birinə yardımçı olur və bu əməkdaşlıq nəticəsində təhsildə böyük uğurlar qazanırlar.

Fənn məşğələlərində müxtəlif mövzular ilə əlaqədar cərəyan edən hadisələrə daha da aydınlıq gətirmək və bunların əyani iştirakçısına çevrilmək üçün, məktəb müəllimləri ekskursiyalar təşkil edir, şagirdlərlə birgə muzeylərə gedir, şəhidlər xiyabanını, tarixi abidələri ziyarət edir, maraqlı gecələr təşkil edirlər. Beləliklə, dərs və dərsdən sonra təşkil olunmuş , məktəblilərin iştirak etdikləri sinifdənxaric işlər arasında sıx əlaqə yaranır ki, bu da şagirdlərin zəngin məlumat toplamalarına, bilik və bacarıqlarının artırılmasına səbəb olur.

Şagirdlərin sinifdənxaic işlər zamanı düzəltdikləri əyani vəsaitlərdən, cihazlardan müəllimlər dərs prosesində istifadə edirlər. Dərs prosesində aldıqları biliklər, sinifdənxaric məşğələlər zamanı aldıqları bilik, bacarıq və vərdişlərin ardıcıl davamına çevrilir və tətbiq sahəsini tapdığı üçün bir az da möhkəmlənir.

"Bacarıqlı əllər"adı altında keçirilən sinifdənxaric dərnəklərdə şagirdlər, əsasən qızlar, tikmələr, dərzilik, evdarlıq kimi vərdişlər əldə edə bilirlər ki, bu da onların gələcəkdə istər səriştəli həyat yoldaşı, istərsə də qayğıkeş ana kimi gərəyi olur.

Peşə yönümlü sinifdənxaric məşğələlər zamanı yuxarı sinif şagirdləri sevdikləri əlavə ixtisaslara yiyələnə bilirlər. Fizika fənnindən aldıqları bilgilərinin məntiqi davamı kimi onlar texniki yaradıcılıq məşğələləri vasitəsi ilə yaxşı konstruktor, dizayner, telemexanik, radioelektronika peşəsinə yiyələnəib, gələcəkdə öz müstəqil işlərini formalaşdıra bilərlər.

Dərs və sinifdənxaric işlərin qarşılıqlı əlaqəsinin ən bariz nümunəsi kimi Respublikamızın məktəblərində müxtəlif fənlər üzrə olimpiadaların keçirillməsini nümunə gətirmək olar. Fənlər üzrə olimpiadaların keçirilməsi şagirdlərin biliyinin möhkəmləndirilməsinə xidmət edir. Bu olmpiadalarda fənlər üzrə il ərzində ən yüksək göstəriciləri olan şagirdlər iştirak edirlər. İlk "start"ını məktəblər arasından başlayan bu möhtəşəm bilik yarışı beynəlxalq səviyyəyədək davam etdirilir.

Beləliklə, yuxarıda qeyd olunanlardan bu qənaətə gəlmək olar ki, dərs və sinifdənxaric işlər bir-biriilə sıx əlaqədar olmaqla, yuxarı sinif şagirdlərinin müstəqil fəaliyyətlərini birgə tənzimləyir və inkişaflarına təkan verir. Sinifdənxaric işlər məktəbliyə daha çox müstəqillik verərək, onun müəllimə fərdi yanaşmasını asanlaşdırır. Sinifdənxaric işin dərslə qarşılıqlı təsiri, məktəblinin bilik axtarışında mobilliyinin təmin olunması və maraqlarının həyata keçirilməsinə kömək edir.

Birinci fəslin "***Sinifdənxaric işin məzmunu və formalarının psixo-pedaqoji və metodoloji əsasları***" adlanan üçüncü yarımfəslində göstərilir ki, sinifdənxaric işin məzmun və formalarının seçilməsi, təşkili, yekunlaşdırılması işi müəyyən pedaqoji və psixoloji əsaslara söykənir. Məktəb rəhbərləri, müəllim və tərbiyəçilər müvafiq pedaqoji qanunauyğunluqlardan xəbərdar olmasalar, müəyyən pedaqoji tələblərə əməl etməsələr, ümumpedaqoji prinsipləri nəzərə almasalar, tərbiyə üsullarının tətbiq imkanlarını bilməsələr, məktəblilərin müstəqil fəaliyyətlərini, tərbiyəsini inkişaf etdirmək işində müvəffəqiyyət əldə edə bilməzlər. Əgər onlar, şagirdlərin yaş, fərdi, cinsi xüsusiyyətlərini nəzərə almasalar, onların qavrayışını, hafizəsini, diqqətini, iradəsini, təxəyyül səviyyəsini, təfəkkür tərzini, xarakterini və qabiliyyətini öyrənmədən bu işin təşkilinə rəvac verərlərsə, yenə də istədikləri nəticəni əldə edə bilməzlər.

Sinifdənxaric işlərin keçirilməsi zamanı pedaqoq tərbiyənin mövcud prinsiplərinə, o cümlədən, ardıcıllıq, sistemlilik, yaşauyğunluq, məqsədyönlülük, məktəbliyə inam, hörmət və tələbkarlıq, kollektiv vasitəsilə təsir, humanistlik, pedaqoji rəhbərliklə şagirdlərin əməkdaşlığına diqqət yetirərsə, nəticədə təlimdə müvəffəqiyyət qazanmaq mümkün olar.

Hər bir məşğələnin keçirilməsində məqsəd, şagirdlərdə formalaşmış təlim, tərbiyə və praktik bacarıqların inkişaf etdirilməsinə nail olmaqdır. Bu nailiyyətlərə çatmaq üçün, sinifdənxaric işləri həyata keçirən müəllim nəticəni əvvəlcədən görməyi bacarmalı, şagirdlərin təsadüfü uğursuzluqlara məruz qalmamaqları üçün keçiriləcək mövzunun məzmununu, onun şagirdllərin bilik səviyyəsinə, yaş həddinə və fərdi xüsusiyyətlərinə uyğun-

luğunu nəzərə almalıdır. Maraqlı iş formalarının tətbiqi zamanı ən zəif şagird belə kənarda qalmamalı, o prosesin fəal iştirakçısına çevrilməlidir.

Məktəbdə təşkil olunmuş sinifdənxaric işlərə valideynlərin də cəlb edilməsi və bilavasitə bu prosesin iştirakçılarına çevrilməsi çox önəmlidir. Şagirdlərin yuxarı siniflərdə öz valideynləri tərəfindən "izlənmilməsi» cox müsbət bir haldır. Övladlarına mütəmadi olaraq nəzarət etmək üçün məktəblə sıx əlaqə yaradan valideynlər həm onların məktəbdəki dərs fəaliyyətindən xəbərdar olur, həm də bu çətin və şərəfli işdə müəllimlərlə əməkdaşlıq edirlər.

Məktəblilərinin mənəvi sağlamlığı iki kollektivin- müəllim və valideyin kollektivinin mənəvi sağlamlığından çox asılıdır.

Böyük rus pedaqoqu A.S.Makarenko haqlı olaraq demişdir: "Mən heç bir zaman yaxşı tərbiyənin pis nəticələr verməsi halına rast gəlməmişəm".

Birinci fəslin "***Məktəb təcrübəsində problemlə bağlı vəziyyətin təhlili***"adlanan dördüncü yarımfəslində problemin nəzəri hissəsinin məktəbdə necə yerinə yetirilməsini araşdırmaq məqsədilə aşağıda qeyd olunan pedaqoji şərtləri müəyyən etdik:

- məktəbdəki dərslərin sinifdənxaric işlərlə əlaqəsi;
- məktəblilərin təlimdə nailiyyət qazanması üçün məktəbdə sinifdənxaric işlər necə planlaşdırılır;
- müəllimlər tərəfindən ümumipedaqoji tələblərin yerinə yetirilməsinə diqqət nə səviyyədədir;
- təlim-tərbiyə prosesinin həyata keçirilməsinə nəzarət və rəhbərliyin gücləndirilməsi məqsədilə, valideynlərin, gənclər ictimai təşkilatı və şagird özünüidarə orqanlarının məktəbdəki fəaliyyəti qənaətbəxşdirrni .

Ümumtəhsil məktəblərinin yuxarı siniflərində şagirdlərin inkişafına effektiv təsir edən sinifdənxaric işlərin həyata keçirilməsi üçün yaradılmış imkanlar araşdırıldı.

Yuxarı sinif şagirdlərinin idrakı maraqları, arzu və istəkləri nəzərə alınmaqla, dərs zamanı aldıqları biliklərinin praktik sinifdənxaric işlərə tətbiq edilməsində Bakı şəhərindəki Z. Əliyeva adına liseyin müəllimləri fərqlənirdi. Sinifdənxaric fənn dərnəkləri və məşğələlərinin keçirilməsində Leyla Fətəliyeva (biologiya) və Mehriban Vəliyevanın (Azərbaycan dili və Ədəbiyyat) qabaqcıl pedaqoji iş təcrübəsi nümunə kimi digər məktəblərin müəllimləri arasında yayıldı. Bu müəllimlər interaktiv təlim metodlarını davamlı olaraq tətbiq etməklə, tərbiyənin yeni vəzifələrini ardıcıl irəli sürməklə şagird kollektivini müstəqil fəaliyyətə cəlb edir, yoldaşlarına münasibətdə cavabdehlik daşımağa ruhlandırmaqla, "həmişə irəli» şüarı

altında bu işi müvəffəqiyyətlə həyata keçirməyə çalışırdılar.

Eksperimentə cəlb edilmiş digər məktəblərdə, Bakı şəhərindəki 60N-li, Zaqatala şəhərindəki 1, 2 və 3-Ni , Balakən şəhərindəki 1 və 2N-li tam orta məktəblərdə isə pedaqoji işçilərin yaratdığı boşluq nəticəsində sinidənxaric məşğələlər ardıcıl olaraq keçirilmir və bu səbəb üzündən də yuxarı sinif şagirdlərinin müstəqil işgörmə bacarığı və fəallıqlarının aşagı səviyyədə olmasının şahidi olduq.

Tədqiqat işimiz yuxarı sinif şagirdlərinə aid olduğu üçün eksperimentin keçirildiyi bütün məktəblərdə və liseydə ilkin gənclik dövrü ilə əlaqədar onlarda baş verən psixi proseslərin (qavrayış, diqqət, hafizə, duyğu, nitq və s.), psixi halətlərin (əhval, affektlər, dalğınlıq, inam, şübhə və s), psixi xassələrin (temperament, xarakter, qabiliyyətlər) birbaşa təlimin nəticələrinə təsir etdiyini nəzərə alaraq, psixoloqların bu sahədə şagirdlərlə gördüyü işlərlə maraqlandıq. Qeyd etmək lazımdır ki, eksperimentə cəlb edilmiş məktəblərin heç birində psixoloji xidmət qənaətbəxş deyildi. Bir neçə dəfə məktəb psixoloqları ilə əlaqə yaratmaq istəməyimizə baxmayaraq buna nail olmadıq. Yalnız Z.Əliyeva adına liseydə psixoloq xidməti orta səviyyədə idi.

Ümumtəhsil məktəblərində şagirdlərin hüquqlarının qorunması və sosial vəziyyətlərinin yaxşılaşdırılmasına kömək məqsədilə 2005-ci il aprel ayının 16-da Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondunun dəstəyi ilə yaradılmış Azərbaycan Valideyn-Müəllim Assosiasiyasının Birliyinə təəssüf ki, eksperimentə cəlb edilmiş heç bir məktəb qoşulmamışdır.

Eksperimentin keçirildiyi məktəblərin bəzilərində valideyn komitəsinin və gənclər ictimai təşkilatı və şagird özünüidarə orqanlarının işinin yarıtmaz vəziyyətdə olduğu da aşkar edildi.

Təhlilin sonunda belə bir qənaətə gəldik ki, tərbiyə işinin təşkilində bəzi məktəblərin pedaqoji işçiləri öz potensial imkanlarından tam istifadə etmirlər . Tərəfimizdən bir neçə nəticə çıxarıldı:

1. Bəzi məktəblərdə pedaqoji kolllektiv yuxarı sinif şagirdləri ilə tərbiyə işinin təşkili ilə əlaqədar məqsədyönlü iş aparmır;

2. Ümumtəhsil məktəblərinin yuxarı siniflərində bəzi sinif rəhbərləri təlim-tərbiyə işinin həyata keçirilməsinə kortəbii yanaşır, yəni, şagirdlıərin biliklərinin inkişafına və dünyagörüşlərinin artırılmasına yönəldilən sinifdənxaric tədbirlərin keçirilməsinə çox az təşəbbüs göstərirlər ;

3. Yuxarı sinif şagirdlərinin kollektiv birliyi, fərdi xüsusiyyətləri və istəyi nəzərə alınmadan, onların yaradıcı inkişafına müsbət təsir etməyən "köhnəlmiş", plansız və vaxtaşırı keçirilən sinifdənxaric tədbirlər şagird-

lərdə heç bir maraq oyatmadığı üçün, onlar bu tədbirlərdə iştirak etməkdən imtina edirlər;

4. Məktəblərin əksəriyyətində gənclər ictimai təşkilatı, şagird özünüidarə orqanının olmaması, təlim- tərbiyə işinin çox zəif qurulmasından xəbər verir, bu cür neqativ hallar isə şagirdlərin aktiv fəaliyyətinə öz mənfi təsirini göstərir..

Tədqiqat işinin məktəbdəki təhlili göstərdi ki, əgər müəllimlər mütəmadi olaraq şagird kollektivinin təlim tərbiyəsi ilə müntəzəm çalışsalar, şagirdlər üzərində təşkilatçılıq, ciddi intizam yüksək səviyyədə olarsa, sinifdənxaric fəaliyyətdən şagirdlər müsbət nəticələr əldə edə bilərlər. Bu şərtlər bir biri ilə sıx bağlı olduqda isə yüksək pedaqoji nəticələr alınır və keçirilən sinifdənxaric işlər zamanı şagirdlərin yaradıcı və müstəqil fəaliyyətləri artır, davranışlarında müsbət dəyişikliklər yaranır.

Dissertasiyanın **"Ümumtəhsil məktəblərinin X-XI siniflərində sinifdənxaric işin təşkili və həyata keçirilməsinin yolları"** adlanan ikinci fəslin birinci yarımfəsli "***Sinifdənxaric işin siniflərlə, şagird kollektivi və hər bir şagirdlə təşkili və həyata keçirlməsinin əsas yolları***" adlanır və qeyd olunur ki, yuxarı sinif şagirdlərinin yaradıcılıq və təşəbbüslərinin ön planda olduğu sinifdənxaric işlər könüllü xarakter daşıyır və məktəbdə pedaqoji işçilər tərəfindən planlı və ardıcıl surətdə həyata keçirilir. Ümumtəhsil məktəblərinin yuxarı siniflərində şagirdlərin sinifdənxaric işlərin bu və digər məzmunlu forma və növlərinə cəlb edilməsi əsasən anket sorğusu vasitəsi ilə müəyyən edilir. Seçim əsasında şagirdlər fərdi, qrup və ya kollektivlə birgə sinifdənxaric işlərə cəlb olunur və burada onlar asudə vaxtlarından səmərəli istifadə edirlər.

Sinif saatının təşkili və keçirilməsi onun məzmununun müəyyən edilməsinə kömək edir. Sinif saatının məzmunu qoyulan mövzuya və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun seçilməlidir, burada həmçinin sinfin hazırlıq səviyyəsi də nəzərə alınmalıdır. Müxtəlif formalarda söhbət, görüş, disput, viktorina və. s. şəkildə təşkil edilən sinif saatına qoyulan əsas tələb, bu tədbirlərdə bütün şagirdlərin fəal iştirakıdır. Sinif saatı rəngarəngliyi ilə seçilməlidir.

Fərdi yanaşma vasitəsilə müəllimlər öz şagirdləri ilə yeni əlaqələr yaratmaqla, onları daha yaxından tanımaq və şagirdlərinə müsbət təsir göstərmək imkanı qazanırlar. Fərdi yanaşma təlim-tərbiyənin başlıca prinsiplərindən biri olmaqla onun düzgün tətbiqi, müəllimin yaradıcı əməyinin başlıca göstəricisi sayılır.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli "***Sinifdənxaric işin səmərəli təşkilində pedaqoji prosesin prinsiplərindən istifadənin***

***zəruriliyi"*** adlanır və qeyd edilir ki,pedaqoji prinsiplərin köməyi vasitəsilə müəllimlər pedaqoji prosesin gedişinə yaradıcı yanaşarlarsa, onlar, şagirdlərin sinifdənxaric fəaliyyətlərini də maraqlı təşkil edə bilələr. Pedaqoji prosesin həyatla əlaqələndirilməsi prinsipdən sinifdənxaric işi səmərəli təşkil edən müəllimlər müntəzəm istifadə edir, dərsdə öyrənilən materialların, keçirilən mövzuların həyatla əlaqəsini, istehsalatda tətbiqini həyata keçirirlər. Dərsdə keçirilən mövzunun daha dərindən mənimsənilməsi baxımından təbiətə, istehslata, tarixi yerlərə ekskursiyalar təşkil edilir. Ekskursiyaların keçirilməsində əsas məqsəd, dərs zamanı alınan biliklərin daha yaxşı qavranılmasıdır. İstehsalata- zavodlara, müəssisələrə edilən ekskursiyalar nəticəsində şagirdlər ən çətin mövzunu asanlıqla mənimsəyir və kitabda oxuduqlarını canlı həyatda müşahidə edə bilirlər.

Ekskursiyalar eyni zamanda, yuxarı sinif şagirdlərinin dünyagörüşlərinin artmasına, kollektivdə səmimi münasibətlərin yaranmasına, müəllim-şagird həmrəylilyinin, dostluğun, etibarın möhkəmlənməsinə səbəb oldu.

Pedaqoji prosesin "həyatla əlaqələndirilməsi" prinsipindən müxtəlif sinidənxaric tədbirlərin həyata keçirilməsi zamanı şagirdlərin həm əyani gördükləri, həm də mütəxəssislərdən aldıqları hərtərəfli məlumatlar nəticəsində, onların biliyi genişlənir, dünyagörüşləri artırır və bu faktlar onları geniş sosial-iqtisadi və mədəni-siyasi həyata qovuşdurur.

"Münasib şəraitin yaradılması" prinsipi əsasında belə bir qanunauyğunluq durur: "Zəruri maddi-texniki bazada və mənəvi psixoloji mühitdə keçirilən təlimin səviyyəsi yüksək olur"

"Fərdi xüsusiyyətlərin nəzərə alınması və müyəssərlik" prinsipindən şagirdin mövcud bilik və bacarıq səviyyəsini üzə çıxarmayan, onların hafizə xüsusiyyətlərinə, düşünmə tərzinə əhəmiyyət verməyən müəllimin zəhməti hədər gedər. Müəllim öz fərdi iş üsulu ilə, yəni şagirdlərə yönəltdiyi suallar vasitəsi ilə keçdiyi mövzunun açılması üçün motivasiya yaratmalı və onları mövzu ətrafında mühakimə yürütməyə cəlb etməlidir. Məhz bu prinsip rəhbər tutularaq, təfəkkürü iti olan, xüsusi istedada malik Zərifə Əliyeva adına Liseyin X-XI sinif şagirdlərinin iştirakı ilə "Elmdə ilk addımlar" mövzusunda elmi -praktik konfrans keçirildi. Məktəblilərin elmi tədqiqat fəaliyyətinə həsr olunmuş bu konfransın keçiriləcəyi vaxt elan olunmuş, kimya, biologiya, riyaziyyat, coğrafiya və digər fənlərə aid elmi məruzələrin hazırlanması və təşkilatı işlər haqqında şagirdlərə əvvəlcədən məlumat verilmişdır. Konfransa digər məktəblərin iti zəkaları, qonaqlar da dəvət edilmişdir. Konfransın keçirilməsinin əsas məqsədi yaradıcılıq qabiliyyəti və xüsusi istedadları olan yuxarı sinif şagirdlərinə stumul

vermək, onlarda müxtəlif elmə olan marağı artırmaqdan ibarət idi. Konfrans zalının girəcəyində Plutarxın kəlamı asılmışdır:"İnsan təbiətində iki ali məqam var: zəka və nitq, hər ikisi ancaq təhsil vasitəsilə inkişaf etdirilir". Konfransda çıxış edən tədqiqat xarakterinə, aktuallığına, yeniliyinə, nəzəri və praktik əhəmiyyətinə görə fərqlənən yuxarı sinif şagirdlərinin ən yaxşı elmi tədqiqat işləri seçilmiş və onlara məktəb rəhbərliyi tərəfindən diplomlar və fəxri fərmanlar verilmişdir. Digər iştirakçılara isə "konfrans iştirakçısı» seltifikartları təqdim edildi. Şagirdlərə göstərilən bu diqqət onları ürəkdən sevindirir, gələcəkdə təhsildə daha böyük uğurlar və nailiyyətlər qazanmağa ruhlandırır. Konfrans yuxarı sinif şagirdlərinin elmi-tədqiqatçılıq, müstəqil işgörmə fəaliyyətlərinin nümayişi baxımından həm də bir sınaq meydanı idi. Konfransların tədris ili ərzində ardıcıl olaraq keçirilməsi, şagirdləri elm sahəsində yeni tədqiqat uğurları qazanmağa, bilik, bacarıq, və səriştələrinin atrmasına, hər dəfə daha çox şagirdi cəlb etməklə onların sayının çoxalmasına, gənc məktəblilərin müstəqil, yaradıcı, tədqiqat işlərinə cəlb edilməsinə səbəb oldu.

"Vahid tələbkarlıq və şagirdin şəxsiyyətinə hörmət" prinsipinin mahiyyəti ondan ibarətdir ki, tələbkarlıq şagirdin şəxsiyyətinə olan özünəməxsus ölçüdür. Bu, hadisə və mahiyyət kimi bir-biriilə sıx bağlı anlayışlardır. Şagirdə hörmət etməklə ondan tələb etmək, deməli, ona diqqətlə yanaşmaqdır, onun güclü və zəif tərəflərini bilmək və gələcək yüksəliş və təkmilləşməsinə lazımi şəraitin yaradılmasıdır.

A.S.Makarenko qeyd edirdi: "Əgər kimsə məndən, pedaqoji təcrübəmin qısa formada məğzini anlatmağımı soruşsaydı, mən belə cavab verərdim: İnsana bacardıqca böyük tələbkarlıq və bacardıqca böyük hörmət göstərmək lazımdır".

Şagirdlər həmişə fəaliyyətlərinə qiymət verilməsinə böyük ehtiyac duyurlar.Müəllimləri tərəfindən fəaliyyətlərinə verilən müsbət qiymətdən məmnun olur və gələcək inkişaflarını təkmilləşdirməyə cəhd edirlər, mənfi qiymətdən narazı qalır və bu vəziyyəti düzəltməyə çalışırlar. Bu vəziyyətdə müəllim verdiyi qərarda obyektiv olmalı, münasib ciddiliyi xeyirxahlıqla, etibarı nəzarətlə birləşdirməyi bacarmalıdır. Müəllim məktəblinin sağlam gücünə inanmalı, ona etibar etməli, xarakterində və davranışında olan mənfi xüsusiyyətləri aradan qaldırmaqla onu tərbiyə etməyə çalışmalıdır.

Dissertasiya işinin ikinci fəslinin üçüncü yarımfəsli ***"Sinifdənxaric iş yuxarı sinif şagirdlərinin tərbiyəlilik səviyyəsinin yüksəldilməsi vasitəsi kimi"*** adlanır. Sinifdənxaric işlərin ümumtəhsil məktəblərinin yuxarı siniflərində təşkili və aparılması, ictimai təşkilatların (gənclər təşkilatı, şagird

kollektivi) və valideynlərin bu məşğələlərin keçirilməsinə etdikləri dəstək nəticəsində şagirdlərin ümumi inkişafı, dünyagörüşü və tərbiyəlilik səviyyəsi yüksəlir. Yəni, sinifdənxaric işlərin ardıcıl keçirilməsi nəticəsində şagirdlərin müstəqillik, özfəaliyyət və özünüidarəsinin gücləndirilməsinə, mənəvi aləmlərinin zənginləşməsinə, ictimai fəallıqlarının artmasına, intizamın və kollektiv birliyin möhkəmləndirilməsinə nail olmaq mümkündür.

Eksperimentə cəlb olunmuş məktəblərdə sinifdənxaric işlərin nəticələrinə qiymət verilərkən əsas meyar kimi kəmiyyət yox, keyfiyyət göstəriciləri götürülmüşdür.

Sinifdənxaric tədbirlər yalnız o zaman qənaətbəxş hesab edilə bilər ki, o gənc nəsildə nəcib əxlaqi sifətlərin formalaşmasına kömək göstərsin, təlim-tərbiyə nöqteyi-nəzərindən məzmunlu olsun, məktəbin qarşısında duran təlimedici, tərbiyəedici və inkişafetdirici funksiyalar arasında əlaqə yaratmaq mahiyyəti daşısın. Yəni, məktəbdə il ərzində keçirilən sinifdənxaric işlərin sayı deyil, onların yuxarı sinif şagirdlərinin intizamına, davranış və rəftarına, şüuruna, tərbiyəlik səviyyəsinə göstərilən müsbət dəyişikliklərə diqqət yetirilməlidir. Buna nail olmaq üçün isə, sinidənxaric işin müxtəlif formalarına davamlı müraciət etməklə, yuxarı sinif şagirdlərində vətənpərvərlik, yoldaşlıq və dostluq, özünə və başqalarına, yaşlılara hörmət, düzgünlük, şəxsi və milli ləyaqət hisslərinin, qayğıkeşlik, cəsurluq, sadəlik, təvazökarlıq, xeyirxahlıq və s. kimi mənəvi keyfiyyətlərin inkişafının qayğısına qalmaq lazımdır.

Sinifdənxaric tədbirlərin bir sıra formalarının söhbət, müzakirə, disput, görüş, gecə, ekskursiya və s. həyata keçirilməsi zamanı, şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların tərbiyəlilik səviyyəsinin yüksəldilməsinə nail olmaq olar.

Qarşıya qoyulan məqsəddən asılı olaraq, müzakirələr bu və ya digər əsərə həsr oluna bilər. Bədii əsərlərin müzakirə edilməsi gənclərdə vətənpərvərlik, xeyirxahlıq, vicdan, ədalət, şəxsi ləyaqət hissi, anaya, Vətənə, xalqa təmannasız xidmət etmək borcu kimi insani keyfiyyətlər aşılayır. Bunun üçün şagirdlərə tam müstəqillik verilməli, məktəbdə keçirilən dərslərin ahəngdarlığı qorunmaqla, müxtəlif tərbiyəvi mövzulara həsr olunmuş əsərlər şagirdlərin seçimi əsasında müzakirə olunmalıdır.

Müxtəlif tarixi günlər, tarixi hadisələrlə bağlı keçirilən yığıncaq və gecələr də şagirdlərin yaddaşında daim qalır və onlarda böyük qurur hissi oyadır.Bu gecələrin təsirindən uzun müddət ayrıla bilməyən yuxarı sinif şagirdləri həmin qəhrəmanlardan qurur hissi keçirir və özlərini onlar kimi igid olmağa hazırlayırlar.

Şagirdlərin tərbiyəlilik səviyyəsinin yüksəldilməsi vasitəsi kimi yuxarı sinif şagirdləri ilə keçirilən sinifdənxaric işlərin məqsədi,onların Vətənə, torpağa, tarixi keçmişimizə, azadlıq və istiqlaliyyətimiz uğrunda yorulmadan mübarizə aparmış xalq qəhrəmanlarımıza, sərkərdələrimizə, böyük xadimlərimizə, mədəniyyətimizə, müstəqilliyimizə, dilimizə, dövlət rəmzlərimizə, xalqımıza hörmət və rəğbət hissləri formalaşdırmaq məqsədi daşıyır.

Dissertasiya işinin ikinci fəslinin dördüncü yarımfəsli **"Yuxarı sinif şagirdlərində yaradıcı fəallığın təşəkkül tapmasında sinifdənxaric işlərin rolu"a**dlanır və qeyd edilir ki,.yuxarı sinif şagirdlərində yaradıcı fəallığın təşəkkül tapması sistemində sinifdənxaric məşğələ və dərnəklər:

İlk növbədə, yuxarı sinif şagirdlərinin yaradıcılıq qabiliyyətlərini artırır, onlar daim irəli, daha böyük müvəffəqiyyətlər qazanmaq amalı uğrunda çalışırlar. Bu baxımıdan onları irəliyə, yüksəlişə, qələbəyə çatmaq üçün ruhlandırmaq yönümündə tərbiyə etmək lazımdır;

İkincisi, onların düşünmə, idraki, yaradıcılıq və tədqiqatçılıq qabiliyyətlərini maksimum artırır. Onlar özlərini cəmiyyətə gərəkli bir şəxs hesab edirlər;

Üçüncüsü, onların kollektivdə birgə işləmək istəyi formalaşır. Burada kollektivin heç bir üzvünə fərq qoymadan, hətta ən "seçilən" şagirdi belə kollektivin digər üzvülərindən fərqləndirməmək üçün məşğələni aparan müəllimdən yüksək pedaqoji ustalıq tələb olunur;

Dördüncüsü, şagirdlərin müstəqil yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirmək müəllim kolllektivinin birliyindən asılıdır. Onlar yaradıcı , şagirdlərin uğurlarına maraqlı, daim öz üzərində çalışan və lazımı dərəcədə dözümlü olmalıdırlar.Ən əsası isə yüksək nəticələr qazanmaq üçün müəllim-şagird münasibətlərində əməkdaşlıq, bir-birini başa düşmək, bir-birinə hörmət etmək və hər bir şagirdi ümimi yaradıcılıq işini qiymətləndirmək başlıca şərtlərdən biridir.

İlk gənclik dövründə məktəblilər yeni aparıcı fəaliyyət tipinə – tədris-peşə fəaliyyətinə keçirlər. Bu fəaliyyət tipinin düzgün təşkili şagirdlərin sonrakı əmək fəaliyyətinin subyektinə çevrilməsini, onların əməyi sevmələrini şərtləndirir.

Dissertasiya işinin üçüncü fəsli **"Eksperimentin təşkili, aparılması və nəticələri"** adlanır. Üçüncü fəsilin birinci yarımfəslində" ***Eksperimentin mərhələləri və onların təşkili prosesi***"adlanır.

İrəli sürdüyümüz fərziyyə ilə əlaqədar apardığımız pedaqoji müşahidədən, müsahibədən və anketləşdirmədən çıxarılan nəticələrin nə dərəcədə

doğru olduğunu yoxlamaq, eləcə də ümumtəhsil məktəblərinin yuxarı siniflərində sinifdənxaric işlərin müxtəlif formalarının məktəbli gənclərin dərs zamanı aldıqları biliklərinin daha da təkmilləşdirməsinə, şagirdlərin təlim materialını daha dərindən mənimsəməyə və idrakı maraqlarının inkişafına kömək göstərdiyini müəyyənləşdirmək məqsədilə tədqiqat işində araşdırılmalar aparılmış, çatışmamazlıqların səbəbləri göstərilmiş və bunların praktik cəhətdən səmərəliliyi yoxlanılaraq əsaslandırılmışdır.

Eksperiment üçün seçilmiş siniflərdə sınağın üç mərhələdə aparılması nəzərdə tutulmuşdur:

1. Müəyyənləşdirici pedaqoji eksperiment, yəni eksperimentin aparılacağı siniflərdə vəziyyətin aydınlaşdırılması;

2. Öyrədici pedaqoji eksperiment-nəzərdə tutulan pedaqoji ideyanın əyani tətbiqinin öyrənilməsi məqsədilə təcrübənin təşkili və keçirilməsi;

3. Yoxlayıcı pedaqoji eksperiment-mövcud pedaqoji vəziyyətin yoxlanılaraq sınaqdan keçirilməsi.

Tədqiqat işinin aparıldığı 2012-2015 illər ərzində keçirilən silsilə sinifdənxaric tədbirlər dərs və sinifdənxaric işlər arasında sıx əlaqə yaratmağa, yuxarı sinif şagirdlərinin dərs zamanı aldıqları biliklərini daha da təkmilləşdirməyə və proqram materialından əlavə topladıqları təcrübələri məzunlara peşə seçimi etməyə, fənlər üzrə keçirilən məşğələlər isə,onların seçdikləri ixtisaslara yiyələnmələri üçün güclü bilik bazası yaratmağa imkan verdi.

Apardığımız eksperiment aşağıda qeyd olunanları təsdiqləməyə imkan verdi:

1. Apardığımız eksperiment göstərdi ki, nəzərdə tutduğumuz pedaqoji şərtlər vasitəsi ilə keçirilən sinifdənxaric işlər yuxarı sinif şagirdlərinin əqli bilik və bacarıqlarının inkişafının müsbət dinamikasına real imkanlar yaratdı. Beləliklə, eksperimentin yoxlanıması üçün müəyyən edilmiş pedaqoji şərtlər öz həllini tapdı.

2. Siinifdənxaric işlərdə yuxarı sinif şagirdlərinin əqli bilik və bacarıqlarının inkişafına yönəldilən əsas meyarlar bunlardan ibarət idi; tapşırıqların yerinə yetirilməsində qeyri-ənənəvilik, yeni ideyaların verilməsi, orjinallıq, anlamlılıq, işgörmə bacarığında inadkarlıq, gördüyün əqli və yaradıcılıq işindən məmnun qalmaq.

3. Yuxrı sinif şagirdlərinin əqli bilik və bacarıqlarının inkişafına yönəldilən siinifdənxaric işlərin effektivliyi müsbət kəmiyyət və keyfiyyət göstəriciləri vasitəsilə sübut edilmiş, fənn məşğələlərində şagirdlərin göstərdiyi fəallılığın digər sinifdənxaric tədbirlərlə müqayisədə eksperimental

siniflərdə daha yüksək 80%, kontrol siniflərdə 47%, orta hesabla eksperimental siniflərdə 33% çox olmuşdur.

Nəticədə yuxarı sinif şagirdləri aşagıda qeyd olunan bacarıqlar əldə etdilər:

- müstəqil fəaliyyət bacarıqları-( mikrosxem əsasında “robortlar” yığır, müxtəlif elektrik avadanlıqlarını təmir edir, fizika dərsi üçün əyani vəsaitlər-cihaz, plakat hazırlayır, təcrübələrin qoyulması və keçirilməsində iştirak edirlər);
- duyğu bacarıqları- ( hadisələri anlama , yaradıcı təxəyyülləri);
- əqli bacarıqları-(təlim zamanı rast gəldikləri formulaları oxuyur , reaksiyaların aparılması, qrafik və hesablama bacarıqları, sxem, təsvir, dizayn bacarıqları);
- qarışıq bacarıqlar (mədəni-davranış bacarıqları, fənlərarası əlaqələrdən istifadə etmək bacarıqları, məişət avadanlıqları və maşınlarının təmiri bacarıqları, təqdimat bacarıqları, gigeyena və aktyorluq bacarıqları)

Əmin olduq ki, sinifdənxaric işlərin həyata keçirilməsi zamanı şagirdlərin müstəqil işləri əsasında yeni nəticələrin alınmasına istiqamətlənən fəaliyyətləri əsas yeri tutur.

**2014-2015-ci (yoxlayıcı mərhələ) dərs ilinin sonunda kontrol və eksperimental siniflərdə keçirilmiş sinifdənxaric tədbirlərin nəticələri**

Cədvəl 4

| S/N | Müəyyən ediliş bilik və bacarıqların siyahısı | Bilik və bacarıqları müəyyən ediliş şagirdlərin sayı(%) | | |
|---|---|---|---|---|
| **Tapşırıq1** | | KS1 | KS2 | ES |
| 1 | Ana dili və ədəbiyyat fənnindən sərbəst mövzuda inşa yazır və qrammatik səhv buraxmır. | 60 | 12 | 80 |
| 2 | Yazdığı müstəqil mövzunu həyatla əlaqələndirir. | 70 | 14 | 91 |
| **Tapşırıq 2** | | | | |
| 3 | Mikrosxem əsasında “robortlar” yığır | 40 | 17 | 50 |
| **Tapşırıq 3** | | | | |
| 4 | Müxtəlif elektrik avadanlıqlarını təmir edir | 75 | 21 | 92 |
| 5 | Fizika dərsi üçün əyani vəsait hazırlayır | 60 | 27 | 74 |

ES - sinifdənxaric işlərin ardıcıl keçirildiyi eksperimental siniflər

KS1- sinifdənxaric işlərin müəyyən fasilələrlə keçirildiiy kontrol siniflər

KS2-sinifdənxaric işlərin çox az keçirildiyi kontrol siniflər

Üçüncü fəsilin ikinci yarımfəsli ***"Eksperimental və kontrol siniflərdə səmərəlilik göstəricilərinin müqayisəli təhlili"*** adlanır. Eksperimental və kontrol siniflərlərdə şagirdlərin müvəffəqiyyət göstəricilərinin vəziyyəti, şagirdlərin yoxlama və müstəqil işlərinin yerinə yetirilməsinin nəticələrinə görə müəyyən edilmiş, verilən mövzunun mənimsənilməsi, tapşırıqların yerinə yetirilməsində biliyin tətbiqi və həll etmədə öz seçimini dərk etmə bacarığı nəzərə alınmışdır. Əldə edilmiş nəticələr keçirdiyimiz eksperimentin duzgün aparıldığını, onun şagirdlərin biliklərinin mükəmməlləşdirilməsinə müsbət təsir göstərdiyini və sinifənxaric işlərin ardıcıl keçirildiyinə görə, kontrol siniflərə nisbətən, eksperimental siniflərdə daha yaxşı nəticələr verdiyini təsdiq etdi. Eksperimental siniflərdə ardıcıl olaraq keçirilmiş sinifdənxaric tədbirlər, həmçinin verilmış tövsiyyələr və yeni üsulların tətbiqi, ilin sonunda keçirilmiş anket sorğusunun cavablarını nəticəsinin uğurlu olduğunu göstərdi.Yuxarı sinif şagirdləri sinifdənxaric tədbirlərə müsbət münasibət bəslədikləri və fənlər üzrə məşğələlərdə çox böyük həvəslə iştirak etdikləri üçün, onların dərs zamanı aldıqları bilikləri daha da təkmilləşmişdir. Nəticədə, Zərifə Əliyeva adına Liseydə üç şagird kimya fənnindən beynəlxalq olimpiadada müsbət nəticə göstərmiş, 60N-li məktəbin 11-ci şagirdi respublika olimpiadasında riyaziyyat fənnindən 2 yerə çıxmışdır.Eksperiment keçirdiyimiz regionların məktəbliləri isə şəhər olimpiadasının qalibi olmaqla fərqlənmişdirlər.

Eksperimentin aparıldığı illər ərzində yuxarı sinif şagirlərinin şəxsi keyfiyyətlərində də dönüş yaranmışdır. Eqoizm və mənəmlilik kimi yuxarı sinif şagirdləri üçün xarakterik olan hallar qismən yumşalmış, müsbət istiqamətdə formalaşmış, onlar özlərinə və yoldaşlarına qarşı daha tələbkar və məsuliyyətli, bir birinə diqqətli və qayğıkeş olmaqla, kollektivdə möhkəm birlik yarada bilmişdirlər.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat boyu əldə edilən qənaətlər ümumiləşdirilmiş, təlimdə səmərəliliyin artırılması, Azərbaycanın yeniyetmə və gənclərinin müstəqil həyata hazırlıqlarının düzgün istiqamətləndrilməsində yuxarı sinif şagirdləri ilə aparılan sinifdənxaric işlərin böyük əhəmiyyəti olduğu qeyd edilmişdir. Bu sahədə apardığımız tədqiqat işimiz aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

1. Son illərdə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdırinin sinifdənxaric məşğələlərə marağı azalmışdır. Bu "yadlaşmanı» aradan

qaldırmaq üçün müəllimlər bir çox vasitələrə əl atmış, ən məqsədəuyğun hal kimi sinifdənxaric məşğələlərin təşkili və keçirilməsinə diqqətin artırılmasını önəmli hesab etmişdirlər. Əvvəlcədən planlaşdırılan, qeyri standart quruluşa malik olan sinifdənxaric tədbirlər təlim-tərbiyə prosesini daha məzmunlu etmiş, məktəbdə təhsilin demokratikləşməsi istiqamətində atılan mühüm addım kimi xüsusi əhəmiyyət kəsb etmişdir.

2. Təlim-tərbiyə işini həyata keçirən dərs və sinifdənxaric işlər bir-biri ilə sıx bağlı olaraq, eyni prosesin ayrılmaz hissəsi kimi, gənclərin şəxsiyyətinin formalaşmasına xidmət edir. Bu iki prosesin vəhdəti nəticəsində şagirdlərin bilikləri təkmilləşir, idrakı maraqları inkişaf edir və ümumi dünyagörüşləri artır.

3. Tədqiqat işinin gedişi zamanı məktəb təcrübəsi ilə tanışlıq göstərdi ki, sinifdənxaric işlərin keçirilməsi sahəsində müəyyən təcrübə vardır. Bununla yanaşı, bir çox məktəblərdə həyata keçirilən sinifdənxaric işlərin təsadüfi, sistemsiz xarakter daşıdığı da aydın oldu. Bunun əsas səbəblərindən biri yuxarı sinif şagirdləri ilə sinifdənxaric işlərin ardıcıl həyata keçirilməsi üçün pedaqoji işçilərə nəzəri və praktik cəhətdən yardımçı olan, istiqamət verən metodiki tövsiyə və digər köməkçi materialların kifayət qədər olmaması idisə, tədqiqatın keçirildiyi digər ümumtəhsil məktəblərində isə təhsil işçilərinin bu sahəyə ikinci dərəcəli iş kimi yanaşaraq, onun həyata keçirilməsinə lazımı diqqət verməmələri idi.

4. Yuxarı sinif şagirdləri ilə keçirilən sinifdənxaric işlərin səmərəsi, pedaqoqların təşkilatçılıq qabiliyyətindən, ona hazırlıq işlərinin aparılmasından, aparıcıların və icraçıların düzgün seçilməsindən, onun düzgün planlaşdırılmasından, keçirilən tədbirlərin mövzu və məqsədinin dəqiq müəyyənləşdirilməsindən, şagirdlərin fəallığından, nəticələrin təhlili və yekunlaşdırılmasından çox asılıdır.

5. Valideynlərin maarifləndirilməsində, ailə və məktəb arasında əlaqə yaradılmasında müəllimlərin rolu çox böyükdür. Bunun üçün valideynlər məktəblə fəal qarşılıqlı əlaqə qurmalı, birgə fəaliyyət göstərməli, istər təlim, istər tərbiyə, istərsə də övladlarının dərsdənkənar vaxtlarının səmərəli keçirilməsi məsələlərinin müzakirəsi və təşkilində iştirak etməlidirlər. Müəllim-valideyn qarşılıqlı fəaliyyətinin bir məqsədi olmalıdır:- məktəblilərin təlim-tərbiyəsi və inkişafına birgə qayğı göstərmək.

6. Yuxarı sinif şagirdləri ilə keçirilən disputlar, ekskursiyalar, müzakirələr, görüşlər, gecələr, "Dəyirmi masa"lar, söhbətlər milli adət-ənənələrimizə və ümumbəşəri dəyərlərə hörmət, vətən torpağını qorumaq kimi şərəfli bir işdə milli qəhrəmanlarımıza oxşamaq, düşmənlə barışmamazlıq, dosta hörmət,

yaşlıların qayğısına qalmaq, igidlik, mərdlik, cəsurluq, qorxmazlıq, əməksevərlik və s. kimi mənəvi keyfiyyətlər aşılamağa xidmət etməlidir.

Tədqiqat zamanı görülən işlərə əsasən aşağıdakı **təkliflər** vermək mümkündür:

1. Sinifdənxaric işlərin təşkili zamanı pedaqoji kollektiv və məktəb rəhbərliyi öz diqqət və səylərini onun məzmununun hərtərəfli, sosialyönümlü olmasına, sinifdənxaric işlərin məzmununu əqli, əxlaqi, estetik, fiziki, əmək tərbiyəsinə yönəltməklə, şagirdlərin ahəngdar və hərtərəfli inkişafı qayğısına qalmağa istiqamətləndirməlidir.

2. Ümumitəhsil müəssisələrində şagirdlərin bilik, bacarıq və qabiliyyətini qiymətləndirməklə onların fəaliyyətini stimullaşdırmaq, onları təhsilə, ictimai işlərə həvəsləndirmək məqsədilə, dərs və sinifdənxaric işlərdə fəallıq göstərən, fənlər üzrə keçirilmiş beynəlxalq olimpiadalarda birincilik qazanan, yeni elmi layihələrin həyata keçirilməsində və digər pedaqoji işlərdə fərqlənən xüsusi istedadlı məktəblilərə, "Məktəbimizin fəxri» döş nişanı və adlı təqayüdlərin verilməsinə, həmçinin məktəbin saytı və kütləvi informasiya vasitələri ilə onların fəaliyyətini işıqlandırmaqla digər şagirdlərə nümunə göstərməyə müvəffəq olmaq.

3. Məktəbli gənclər arasında sağlam həyat tərzinin təbliğ olunması, zərərli vərdişlərin (narkomaniya, əxlaqsızlıq, alkoqolizm) profillaktikası ilə bağlı məktəblərdə ardıcıl sinifdənxaric tədbirlərin ( seminar, konfrans, treninq, sərgi, festifal, müsabiqə, mədəni-kütləvi aksiya və təşviqat kampaniyaların) keçirilməsinə çalışmaq.

4. Yuxarı sinif şagirdlərinin əmək və peşə maraqlarının tərbiyə edilməsində sinifdənxaric işlərin rolu əvəzsizdir. Məktəblərin müxtəlif təyinatlı tədris emalatxanaları ilə əlaqə yaradılması vasitəsilə, qabiliyyət və vərdişləri olan gəncləri bu sahə üzrə seçdikləri praktik məşğələlərə cəlb etmək, onlarda əmək hazırlığı, peşəyə marağı artırmaq, peşə sənətinə aid əlavə bilgilər verməklə, şagirdləri sevdikləri sahəyə yönəltmək.

5. Pedaqoji kadrların ixtisasartırma təhsili üzrə proqramlarına sinifdənxaric tədbirlərin təşkili və keçirilməsi ilə bağlı mövzular daxil etmək, gənc pedaqoji kadrları qısamüddətli kurslara (treninq və seminarlar) cəlb etməklə, bu sahədəki qabaqcıl pedaqoji təcrübənin yayılmasına nail olmaq.;

6. İnformasiya kommunikasiya texnologiyaları vasitəsilə yuxarı sinif şagirdləri arasında innovativ düşüncənin təşviq edilməsi, istedadlı gənclər arasında sağlam rəqabət və ünsiyyət mühitininn formalaşdırılması, fitri istedadı olan gənclərin bir mərkəzdən idarə olunması və onlarla iş aparmaq məqsədilə, sinifdənxaric məşğələlərdə onlar haqqında məlumat və "online

fikir bank”- nın yaradılmasına təşəbbüs göstərmək.

7. Yuxarı sinif şagirdlərinin Azərbaycanın milli-mədəni irsi və tarixi haqqında məlumatlandırılması, dövlət rəmzlərinə hörmət hissinin gücləndirilməsi, eyni zamanda Azərbaycanın milli qəhrəmanlarının və ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş qəhrəmanlara ehtiram və məhəbbətin artırılması məqsədilə, sinifdənxaric məşğələlərdə Azərbaycan dili, tarixi, mədəniyyəti və incəsənətinin inkişafına xidmət edən, intellektual oyunların, müsabiqələrin, olimpiadaların və festivalların keçirilməsi, vətənpərvərlik tərbiyəsi sahəsində yeni layihələrin tətbiq edilməsi və qəhrəmanlıq nümunələrinin məktəblilər arasında təbliğ edilməsinə səy göstərmək.

Dissertasiyanın əsas elmi və təcrübi nəticələri aşağıdakı **elmi məqalə və konfrans materiallarında** çap olunmuşdur:

1.Kimya dərslərində ekoloji biliklərin inkişaf etdirilməsi // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, Bakı, 2011 № 2, s. 121-122

2. Yuxarı sinif şagirdlərində vətəndaşlıq mövqeyinin formalaşmasında sinifdənxaric işlərin rolu // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, Bakı, 2012, №2, s. 49-50

3. Yuxarı sinif şagirdlərində ekoloji mövqeyin formalaşmasında sinifdənxaric işlərin rolu / Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və Gənc Tədqiqatçıların XVII Respublika Elmi Konfransının Materialları. Cild 2, Bakı, 2013, s. 202-203

4. Məktəb sinifdənxaric işi təşkil edən mərkəzdir / Ümumilli lider H.Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Təhsil və Cəmiyyət” mövzusunda V Respublika Elmi Praktik Konfrans. Bakı, 2013, s. 97-101

5. Yeniyetmələrin müstəqil yaradıcı düşünmə qabiliyyətlərinin inkişafında sinifdənxaric işlərin rolu // Dil və Ədəbiyyat jurnalı, 2014, №4 s.198-202

6. Təhsilalanların müstəqil yaradıcı düşünmə qabiliyyətinin inkişafında sinifdənxaric işlərin rolu / Ümumilli lider H.Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Cəmiyyət və Təhsilin İnkişaf Strategiyası” mövzusunda VI Respublika Elmi Praktik Konfrans, Bakı, 2014, s. 342-347

7. Ders Dışı Faaliyetlerin Karşılıklı Etkilişimi Günümüz Okul Çocuklarının Bağımsız Etkinlikleri Esasında // 21. Yüzyılda. Eğitim və Toplum Eğitim bilimleri və sosyal araştırmalar dergisi. TÜRK. EĞİTİM. SEN. Cild 3, №9, 2014, s.177-181

8. Məktəblilərlə keçirilən sinifdənxaric işlərdə fəal təlim forma və metodlarından istifadə edilməsinin imkanları // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Cild 11, № 1, 2015, s.41-43

9. Ümumtəhsil məktəblərinin yuxarı siniflərində yeni texnologiyaların tətbiqi vasitəsilə ingilis dilindən sinifdənxaric işlərin həyata keçirilməsi / Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və Gənc Tədqiqatçıların XIX Respublika Elmi Konfransının Materialları. Cild 2, Bakı, 2015, s. 297-298

10. Внеклассная работа по физическому воспитанию как способ повышения общего уровня здоровья и спортивного мастерства старшеклассников // Мiнiстерство Освiти и Науки Украiни Херсонський Державний Университет 2016, N 43, с.106-109

11. Yaradıcı fəallıq yuxarı sinif şagirdlərinin inkişafına yönəlmiş bir prosesdir / Ümumilli lider H.Əliyevin 93 illik yubileyinə həsr olunmuş "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış" mövzusunda Ümumrespublika Elmi praktik Konfransın materialları, Bakı, 2016, s. 99-100

12. Yuxarı sinif şagirdlərində mənəvi dəyərlərin formalaşmasında sinifdənxaric işlərin rolu // Odlar Yurdu Universitetinin Xəbərləri, Bakı, 2016, №44 , s. 121-125

13. Yuxarı sinif şagirdlərinin mübarizliyinin yüksəldilməsində sinifdənxaric işlərin rolu // Pedaqoji Universitet Xəbərləri, Bakı, 2016, №1, s.122-126

14. Məktəblilərin asudə vaxtının səmərəli təşkilində pedaqoji işçilərin rolu / Gənc alimlərin I Beynəlxalq elmi konfransının materialları, II hissə Gəncə, 17-18 oktyabr 2016-cı il , s. 148-149

15. Yeniyetmələrin təlim-tərbiyəsində valideynlərin rolu / Doktorantların və Gənc Tədqiqatçıların XX respublika elmi konfransının materialları, Cild 2, Bakı, 2016, s. 204-206

16. Sinifdənxaric işin səmərəli təşkilində pedaqoji prosesin prinsiplərindən istifadənin zəruriliyi // Bakı Universitetinin Xəbərləri Sosial-siyasi elmlər seriyası, Bakı, 2016, №1, s.103-108

17. Ümumtəhsil məktəblərinin yuxarı sinif (X-XI sinif) şagirdləri ilə həyata keçirilən sinifdənxaric işlərdə müəllim-valideyn münasibətlərinin rolu // Odlar Yurdu Universitetinin Xəbərləri, 2016 , №44, səh.195-198

18. Внеклассная работа как одна из основных форм педагогического процесса в школе в современный период // Министерство образования и науки РФ Бирск 2016 Социальные, психологические и педагогические проблемы современного общества Материалы I Всероссийской научно-практической интернет конференции с международным участием с. 28-31

**Ганга Нариман гызы Насирова**

## ВНЕКЛАССНАЯ РАБОТА КАК НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА В ШКОЛЕ

### Резюме

Диссертация состоит из введения, 3 глав, отражающих в себе 10 полуглав, выводов и списка использованной литературы.

В введении диссертации обосновывается актуальность темы, определяются ее цели, задачи, дается информация о структуре, опробации работы, методические основы, научно-практическое значение.

Первая глава диссертации под названием «Теоретические основы организации внеклассной работы в старших (X-XI) классах в общеобразовательной школы» состоит из четырёх разделов. В первом разделе расматриваются значение и особенности внеклассной работы, во втором разделе отмечается взаимосвязь классных и внеклассных работ как условие формирования самостоятельной деятельности старшеклассников, в третьем разделе- психолого-педагогические основы отбора содержания и форм внеклассной работы.

Вторая глава диссертации называется «Основы организации и проведения внеклассной работы в старших классах общеобразовательой школы» и состоит из четырех разделов. В этой главе отмечается, что организуя внеклассную работу в школах, надо заботиться об ее многообразных формах. Только многообразная внеклассная работа способна удовлетворить повышение потребности современных школьников и развивать их богатые творческие способности.

Третья глава под названием «Опытно-экспериментальное исследование» состоит из двух разделов,»Этапы эксперимента и процесс его организации» и «Сравнительный анализ в контрольных и экспериментальных классах».

В заключительной части исследования приводится, что основные особенности организации обучения в рамках внеклассной работы направленные на создание условий для более эффективного формирования умений учащихся применять знания на практике; предложены новые подходы к построению содержания работы кружков, которые заключаются в развития межпредметных связей и активизации деятельности учащихся по применению полученных знаний.

**G. N. Nasirova**

## EXTRACURRICULAR ACTIVITES AS AN INTEQRAL PART OF THE PEDAGOGICAL PROCESS IN SCHOOL


### Summary

The introduction substantiates the relevance of the thesis topics, defined its goals and objectives, provides information about the structure and approbation case, methodological foundations, scientific and practical importance of scientific innovation.

The first chapter of the thesis entitled "Theoretical bases of the organization of extracurricular activities in high (X-XI) classes in the secondary school" consists of four sections. The first section reviews the value and features of extracurricular activities, the second section indicates the relationship of classroom and extracurricular activities as a condition of the formation of self-activity of senior pupils, the third section is about the psycho-pedagogical bases of selection of contents and forms of extracurricular activities.

The second chapter is named "Fundamentals of organization and conduct of extracurricular activities in high school" and includes 4 sections. Organizing extra-curricular activities in schools, it is necessary to take care of its diverse forms. Only a diverse class work is able to satisfy the increasing needs of today's students and develop their rich creativity. Creative activity is considered by us as a creative activity of the individual, and as his quality and his ability for this activity.

The third chapter, entitled "Pilot study" consists of two parts, "The steps of the experiment and the process of organization" and "Comparative analysis in the control and experimental classes." In the final part of the study related to the topic, scientific novelty of the task is completed, and it is justified and noted that the main features of the organization of training in the framework of extracurricular activities aimed at creating conditions for more effective formation of skills of students to apply knowledge in practice; new approaches to the construction of the content of the study groups are suggested, which mean development of interdisciplinary connections and activation of the students on the use of the knowledge gained.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**Ганга Нариман гызы Насирова**

# ВНЕКЛАССНАЯ РАБОТА КАК НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА В ШКОЛЕ

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Б А К У – 2 0 1 7**